*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 240-245*

https://doi.org/10.62837/2026.2.240

**NURŞƏRƏF TAĞIYEVA**
***Bakı dövlət Universiteti***
***nurseref.yahyazade@gmail.com***

# MEDİA SAVADLILIĞI VƏ TRENDLƏR: ÜMUMI MƏNZƏRƏ, RISKLƏR VƏ TƏKLIFLƏR

## XÜLASƏ

Qloballaşan dünyada informasiya mübadiləsinin sürətli və sərhədsiz olması media üçün geniş imkanlar açır. Geniş auditoriyanın toplanması, dünyanın hər bir tərəfinə çata bilmək, interaktivlik, canlı yayım və s. belə imkanlardandır. Amma əlbəttə ki, belə bir şəraitdə müxtəlif neqativ hallar və onlardan müdafiə üsulları da mövcuddur. Neqativ hallar dedikdə informasiya bolluğunun yaratdığı çətinliklər, hər kəsin informasiya istehsal etmək və yaymaq imkanınınn olması və bundan irəli gələn problemlər nəzərdə tutulur. Bu məqalədə informasiya cəmiyyətində mövcud olan əsas problemlər, onların oxşar və fərqli cəhətləri, bu problemlərin cəmiyyət və media üçün yaratdığı çətinliklər təhlil olunur. Onların yaranma səbəbləri və mübarizə üsulları məqalənin əsas xəttini təşkil edir. Media savadlılğı informasiya cəmiyyətindəki problemlərlə əsas mübarizə forması kimi analiz edilir. Eləcə də, azyaşlıları, yeniyetmələri medianın risklərindən qorumaq üçün təkliflər irəli sürülür.

**Açar sözlər: media savadlılığı, informasiya savadlılğı, rəqəmsal savadlılıq, mediada risklər, deepfake.**

**Giriş**

Media savadlılığı müasir dövrdə öyrənilməsi olduqca vacib olan bir anlayışıdır. Bəzən media savadlılğının yalnız media mənsubları üçün lazımlı olduğu düşünülsə də, əslində bu, bütövlükdə cəmiyyət üçün əhəmiyyətli olan, ardıcıl və mütəmadi maarifləndirmə tələb edən bir reallıqdır.

**Məqsədi.** Mediadan gələ biləcək risklər barədə məlumat vermək, onlar barədə xəbərdar olmaq üçün nələr diqqət yetirməyin lazım olduğunu təhlil etmək məqalənin əsas məqsədidir. Məqalə media savadlılığına dair müxtəlif mənbələrin nəzəri təhlilini, eləcə də, yerli və xarici media qurumlarında real nümunələrin analizini ehtiva edir.

**Metodlar.** Məqalənin hazırlanmasında, analiz, kontent analizi və müşahidə metodlarından istifadə olunub.

**Savadlılıq nədir?**

Media savadlılğı anlayışı izah etmək üçün, əvvəlcə, ümumi savadlılıq anlayışına nəzər yetirmək lazımdır. Ümumi mənada savadlılıq dedikdə, oxuyub-yazmaq bacarığına sahib olmaq nəzərdə tuutlur. Media kontekstində savadlı olmağın əsas xüsusiyyətləri isə oxuduğunu anlamaq, təhlil etmək, sorğulamaqdır. Yəni siz, əgər

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 240-245*

mediadan gələn hər hansı informasiya sadəcə qəbul etmir, həm də analiz edirsinizsə, real və ya saxta xəbər olduğunu seçə bilirsinizsə, manipulyativ çağırışlara əhəmiyyət vermirsinizsə, eləcə də, risklərdən xəbərdarsınızsa bu halda media savadlı hesab olunursunuz. Bəs nə üçün media savadlı olmaq vacibdir? İnformasiya bolluğu, informasiya çirkliliyi, informasiyanın əlçatan olması, hər kəsin informasiya istehsal etmək imkanlarının olması media savadlılığını hamı üçün vacib edir. Əks təqdirdə, bu qədər informasiya arasında heç bir seçim etmək və ya doğru seçim etmək qeyri-mümkün olar.

**İnformasiya savadlılığı nədir?**

Aşağıda qeyd olunmuş bacarıqlar informasiya savadlılığının göstəricisidir:

- İnformasiyanı düzgün sorğu ilə axtara bilir;
- İnformasiyanı effektiv formada qəbul edə bilir;
- İnformasiyaya tənqidi yanaşa bilir;
- İnformasiyanı səmərəli və yaradıcı şəkildə istifadə edir [3].

**Texnoloji savadlılıq nədir?**

Texnoloji savadlılıq – texnologiyalardan effektiv istifadə, idarəetmə və tənqidi yanaşma bacarığını ehtiva edir. Bu sadəcə ayrı-ayrı texnologiyalardan nə vaxt və necə istifadəni bilməyi deyil, həm də onların imkanlarını, məhdudiyyətlərini, eləcə də, onların fərdlər, cəmiyyətlər və mühit üzərindəki təsirlərini bilməyi əhatə edir. Bəs texnoloji savadlılığın media və informasiya savadlılığından fərqi nədir? O, nə üçün lazımdır? Aydındır ki, texnologiya artıq həyatımızın müxtəlif sahələrinə daxil olub və ayrılmaz hissəsinə çevrilib. Müxtəlif texnoloji yeniliklərdən xəbərsiz olmaq, düzgün istifadəni bacarmamaq insanlara müxtəlif çətinliklər yarada bilir. Bəzən bu sadəcə vaxt itkisi ilə, bəzən isə daha ciddi risklərə, məsələn maliyyə itkisinə də səbəb ola bilir. Buna görə də həyatımızda olan texnoloji avadanlıqlarla davranmağı bacarmaq, onlarım imkanları qədər, riskləri barədə də məlumatlı olmaq vacibdir. Bütün bu yeniliklər, mediada müşahidə olunan trendlər müsbət xüsusiyyətləri ilə yanaşı riskləri də artırır və müxtəlif çətinliklərə səbəb olur:

- Son texnoloji yeniliklər: süni intellekt, virtual reallıq, artırılmış reallıq
- Çətinliklər: az tanınması, çaşdırıcı olması, deepfake

Yuxarıdakı iki bənddə dövrün trendi olan texnologiyalar və onların yol aça biləcəyi və ya yol açdığı çətinliklər ifadə olunub. Çətinliklərdən biri bu texnoloji yeniliklərin ölkə miqyasında hələ kütləviləşməməsi, daha çox gənc nəsil arasında populyarlaşması, digər hallarda çaşqınlıq yarada bilməsidir. Məsələn, kompüter istifadə edən bir insan, virusun mövcudluğundan xəbərsizdirsə ciddi risklə üz-üzədir. Eləcə də, mediada saxta informasiyanın mövcudluğundan, süni intellekt məhsullarından xəbərsiz olan insanlar real xəbəri və ya videonu seçməkdə çətinlik çəkəcək.

Son texnoloji yeniliklərin yaratdığı problemlərdən biri də "deepfake"dir. «Dərin» və «saxta» sözlərinin birləşməsindən yaranıb, süni intellekt və «deep learning»

texnologiyalarından istifadə edərək saxta görüntülərin hazırlanmasıdır. Burada saxta görüntünü ayırd etmək mümkün olmur və ya çox çətin olur. Deepfake videolarında səs və mimikalar da saxtalaşdırılır. Əvvəllər əyləncə məqsədilə istifadə olunsa da, hazırda daha çox məşhurlara və siyasətçilərə qarşı pis niyyətlə istifadə olunur.

**Media məhsullarının məzmununda gedən trendlər.**

Əlbəttə ki, mediada gedən trendlər sadəcə texnologiya ilə bağlı deyil, məzmun baxımından da kifayət qədər dəyişikliklər baş verir. Bu dəyişikliklər informasiyanın təqdim olunma üsullarına yeniliklər gətirsə də, hər zaman faydalı olmur. İlk növbədə, ən çox müşahidə olunan kontent yeniliklərinə nəzər salaq:

➢ İstifadəçiyə əsaslanan kontent (user-generated content) – sosial media, bloqlar, forumlar. İstifadəçiyə əsaslanan kontent dedikdə, media istifadəçisinin eyni zamanda istehsalçı olmasını nəzərdə tutur. Yəni bu cür məzmun yaradıcıları peşəkar jurnalist və ya media işçisi olmurlar. Artıq kifayət qədər geniş auditoriya yığa bilən sosial media istifadəçiləri, bloqerlər var və bu tendensiya bütün dünyada, eləcə də ölkəmizdə sürətlə yayılır. Burada diqqət edilməli olan məqam isə heç bir media qurumuna mənsub olmayan hər hansı bir şəxsin istehsal etdiyi informasiyaya nə dərəcədə etibar etməkdir. Bu tip kontent izləyiciləri vəziyyətin fərqində olmalı, həmin informasiyanın dəqiqliyinə və obyektivliyinə zəmanət verilmədiyini bilməlidir.

➢ Video kontent (video-generated content) – reels, shorts. Video kontent də sosial şəbəkələrin məşhurlaşması ilə gələn trendlərdən biridir. Belə ki, insanların artıq ciddi media qurumlarını belə sosial şəbəkədə izlədiyi bir dövrdə uzun mətnləri oxumadığını, eləcə də bir neçə dəqiqəlik videoları belə izləmədiyini bilirik. Artıq insanlar qısa və sürətlə dəyişə biləcəyi kontentin arxasınca gedirlər. Xüsusilə də, TikTok, İnstagram, Youtube platformalarında qısa videolara maraq göstərən auditoriya ciddi medianı da bu formada kontent yaratmağa məcbur edir deyə bilərik.

**Beləliklə, yuxarıda qeyd etdiyimiz məzmun yeniliklərindən yaranan çətinliklər qısa formada belə ifadə oluna bilər:**

➢ İstifadəçilərin kontent yaratması dəqiq olmayan məlumatların kütləviləşməsini asanlaşdırır.

➢ Video məzmunun populyarlaşması diqqətçəkən, həqiqəti əks etdirməyən qısa videoların çoxalmasına səbəb olur.

**Media savadlılığı kim üçün və nə üçün lazımdır?**

Müasir tendensiyalar media savadlılığını hamı üçün vacib edir. Məqalənin öncəki hissələrində qeyd etdiyimiz tendensiyalar bütün təbəqələri əhatə edir. Bu baxımdan yanaşsaq, media savadlılığı hər kəs üçün lazımdır. Amma bu sırada xüsusilə azyaşlıların, məktəblilərin və yeniyetmələrin savadlanması xüsusi əhəmiyyət daşıyır. Çünki qeyd etdiyimiz təbəqə texnoloji yeniliklərlə ən çox vaxt keçirən, həm asudə vaxtında, həm ünsiyyət qurmaqda, həm də dərslərinin yerinə yetirilməsində onlayn olan bir nəsildir. Onların öyrədilməsində isə valideynlər və məktəb ciddi rol oynayır.

- ***Uşaqlar kiçik yaşlarından müxtəlif media məhsulları ilə tanış olurlar.***
- ***Gün ərzində müxtəlif cihazlardan istifadə edirlər (mobil telefon, planşet, video oyunlar və s.)***
- ***Artıq bir çox uşaq və yeniyetmə şəxsi telefon və sosial şəbəkə istifadəçisidir.***

Bu üç faktoru nəzərə alaraq ilk növbədə valideyn və təhsil müəssisəsi media savadlı olmalı, daha sonra isə uşağın mediadan gələ biləcək risklərdən qorumaq üçün çalışmalıdır.

**Medianın auditoriya üçün ümumi risklərini aşağıdakı kimi qruplaşdırmaq olar:**

- ***Fake xəbər*** - faktlara istinad etməyən, uydurma və tərəfindən təsdiqi olmayan xəbərdir.
- ***Dezinformasiya*** - auditoriyanı aldatmaq və ya çaşdırmaq məqsədi ilə yalan və ya manipulyasiya edilmiş məlumatın qəsdən yaradılması və/və ya paylaşılmasıdır.
- ***Yanlış məlumat (misinformation)*** - səhvən və bilməyərəkdən yaranan və yayılan məlumatdır
- ***«Şayiə» texnologiyası*** (mesencerlərdən istifadə)
- ***Deepfake***
- ***Sosial şəbəkə, YouTube, video oyunlar, mesencerlər***

Bəs azyaşlılar daha çox hansı təsirlərə məruz qalır? İnfluenserlər, Yutuberlər, Blogerlər, Sensasional xəbərlər, Kiberdələduzluq, Video oyunlar. Uşaqlar, yeniyetmələr sosial mediadan daha çox əyləncə, asudə vaxt keçirmək üçün istifadə edir. Bu baxımdan onların bu istiqamətlərdən təsirə məruz qalması daha yüksək ehtimal daşıyır. Psixoloji olaraq izlədiyi bloqerlərin təsirinə düşmək, onlara bənzəmək istəyi, video oyunlara aludə olmaq və onlardan təsirlənmək azyaşlıların üzləşdiyi risklər sırasındadır. Bəs bu kimi halları necə nəzarətdə saxlamaq olar?

**Təkliflər:**

1. Məktəbdə media savadlılığı. Şagirdlərə-tələbələrə infromasiya prosesləri ilə işləməyi öyrətmək
2. İnformasiya mənbələri ilə işləmək – etibarlı mənbə anlayışını formalaşdırmaq.
3. İnformasiyaya tənqidi yanaşmaq qabiliyyətini formalaşdırmaq.

**Nəticə.** Məqalədə media savadlılığı, informasiya savadlılığı, texnoloji savadlılıq kimi anlayışları və onların əhəmiyyətini izah etdik, mövcud riskləri nəzərdən keçirdik və təkliflər irəli sürdük. Yekun olaraq, bu məqalənin sonunda bir neçə nəticə əldə edirik. İlk gəldiyimiz nəticə odur ki, mediada gedən trendlər günümüzün qaçılmaz reallığıdır və bu müxtəlif formalarda təzahür edir. Günümüzdə aktual olan bu problem hər kəsə aid olsa da, həssas təbəqələr üçün daha vacibdir. Üstəlik, media savadlılığına olan tələb get-gedə artır və insandan tələb olunan şərtlər də çoxalır. Belə bir vəziyyətdə, neqativ halların təsir gücünü azaltmaq üçün media savadlılığına

dair təlimləri, maarifləndirici addımları tez-tez təşkil etmək və bunun mütəmadi olmasına çalışmaq lazımdır.

### İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. İbrahimov F., Kərimova M. Şagirdlərin texnoloji savadlılığının, informasiya mədəniyyətinin, intellektual bacarıqlarının inkişafına təsir göstərən mühitin tənzimlənməsi istiqamətləri. Humanitar və ictimai elmlər, 2025, N8, s.9-14
2. Livingstone S. What is media literacy? Intermedia, 2004, p.18-20. Electron resurs: https://www.researchgate.net/publication/30521219_What_is_media_literacy/link/5471b8450cf2d67fc0345353/download?_tp=eyJjb250ZXh0Ijp7ImZpcnN0UGFnZSI6InB1YmxpY2F0aW9uIiwicGFnZSI6InB1YmxpY2F0aW9uIn19
3. https://medialiteracy.media.gov.az/
4. https://acra.gov.az/az/xeberler/397

**N. TAGHIYEVA**

## MEDIA LITERACY AND TRENDS: OVERVIEW, RISKS AND PROPOSALS

### SUMMARY

In a globalizing world, the rapid and unlimited exchange of information opens up vast opportunities for the media. Gathering a large audience, reaching every corner of the world, interactivity, live broadcasting, etc. are some of these opportunities. But of course, in such a situation, there are also various negative situations and methods of protection against them. Negative situations mean the difficulties caused by the abundance of information, the ability of everyone to produce and disseminate information, and the problems arising from this. This article analyzes the main problems existing in the information society, their similarities and differences, and the difficulties these problems create for society and the media. The causes of their emergence and methods of combating them constitute the main line of the article. Media literacy is analyzed as the main form of combating problems in the information society. Also, proposals are put forward to protect minors and adolescents from the risks of the media.

**Keywords: media literacy, information literacy, digital literacy, risks in the media, deepfake.**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 240-245*

**Н. ТАГИЕВА**

## МЕДИАГРАМОТНОСТЬ И ТЕНДЕНЦИИ: ОБЗОР, РИСКИ И ПРЕДЛОЖЕНИЯ

**РЕЗЮМЕ**

В глобализирующемся мире быстрый и неограниченный обмен информацией открывает огромные возможности для СМИ. Сбор большой аудитории, охват каждого уголка мира, интерактивность, прямые трансляции и т. д. – вот некоторые из этих возможностей. Но, конечно, в такой ситуации существуют и различные негативные ситуации, а также методы защиты от них. Негативные ситуации – это трудности, вызванные обилием информации, способностью каждого производить и распространять информацию, и проблемы, возникающие в связи с этим. В данной статье анализируются основные проблемы, существующие в информационном обществе, их сходства и различия, а также трудности, которые эти проблемы создают для общества и СМИ. Причины их возникновения и методы борьбы с ними составляют основную линию статьи. Медиаграмотность анализируется как основная форма борьбы с проблемами в информационном обществе. Также предлагаются меры по защите несовершеннолетних и подростков от рисков, связанных со СМИ.

**Ключевые слова: медиаграмотность, информационная грамотность, цифровая грамотность, риски в СМИ, дипфейк.**

**Rəyçi: fil.elm.dok. Vüqar Əliyev**